**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SAMİRƏ AĞASƏMƏD qızı ƏLİFOVA**

# AZƏRBAYCANDA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN MALİYYƏ RESURSLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ EDİLMƏSİ YOLLARI

**5304.01 - «İqtisadi fəaliyyət növləri»**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2018**

Dissertasiya işi AMEA-nın İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
Qəzənfər Salman oğlu

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
Həsənova Pəri Əmirəhməd qızı

iqtisad elmləri namizədi, dosent
Rzayev Zahid Hüseyn oğlu

**Aparıcı təşkilat:** Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrası

Müdafiə "___" ___________ 2018-ci il tarixdə saat ___ - da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.018 Birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" ____________ 2018-ci ildə göndərilmişdir.

**FD.02.018 Birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.ü.f.d., dosent:** **H.S.Şamilova**

# TƏDQİQAT İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** İqtisadi inkişafın ən vacib komponentlərindən biri sahibkarlıq fəaliyyətinin mövcudluğudur. Lakin, bazar iqtisadiyyatı modelini tətbiq edən ölkələr yalnız sahibkarlıq fəaliyyətinin mövcudluğu ilə məhdudlaşmır. Bu ölkələr eyni zamanda, sahibkarlıq fəaliyyətinin genişlənməsi və yeni sahibkarların yaranması üçün geniş imkanlar yaradır. Çünki, bazar iqtisadiyyatı modelində sahibkarlıq fəaliyyətinin həyat tsikli var: bazara daxil olma, inkişaf və zirvə nöqtəsi, bundan sonra tənəzzül və son. Rəqabətədavamlı olmayan sahibkarlıq fəaliyyətinin missiyasını yeniləri öz üzərinə götürməlidir. Bunun üçün isə yeni sahibkarların yaranmasına şərait olmalıdır. Yeni sahibkarların formalaşmasında və inkişafında əsas meyarlardan biri də sahibkarlıq subyektlərinin maliyyə resurslarının təminatı problemidir. Bütün bunlar isə ölkəmizin iqtisadi inkişafında aparıcı rola malik olan sahibkarlıq subyektlərinin maliyyə təminatında olan problemin aradan qaldırılmasını daha da aktual etmişdir. Belə ki, ölkə iqtisadiyyatının davamlı və dayanıqlı iqtisadi inkişafının təmin olunması sahibkarlıq subyektlərinin maliyyə təminatından, yəni onun maliyyə resurslarının səmərəli təşkili və idarə edilməsindən bilavasitə asılıdır. Bu isə sahibkarlıq subyektlərinin yeni maliyyə təminatı mənbələrinin formalaşdırılmasını zəruri edir. Sahibkarlıq subyektlərinin maliyyə resurslarının səmərəli təşkili iqtisadiyyatın və onun ayrı-ayrı sektorlarının davamlı inkişafında mühüm rol oynayır. Sahibkarlığın inkişafı ənənəvi və alternativ maliyyə vasitələrindən istifadə etməklə, yeni iş yerlərinin yaradılması, büdcə vəsaitlərinin artırılması və səmərəli istifadə edilməsinə şərait yaradır.

Bu məqsədlə qəbul edilmiş sahibkarlıq fəaliyyətinin inkişafına maliyyə dəstəyi verə biləcək milli maliyyə qurumlarının yaradılması üçün “Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun Əsasnamə”si təsdiq edilmiş və “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı”, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi” və digər proqramlar və konsepsiyalarda qəbul edilmişdir ki, burada strateji hədəflərdən biridə uzunmüddətli dövr

üçün ölkədə sahibkarlıq fəaliyyətinin perspektiv inkişafına nail olmaqdır.

Bu zərurətdən irəli gələrək, Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu (SMKF), Kiçik və orta sahibkarlığın inkişafı agentliyi və rayonlarda sahibkarlığın inkişafı mərkəzləri yaradılmışdır. Bu yaradılan mərkəzlər vasitəsilə dövlət büdcəsinin vəsaiti hesabına güzəştli kreditlər verə biləcək ilk maliyyə qurumunun əsası qoyulmuşdur.

Bu məqsədlə, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən hər il müəyyən miqdarda vəsaitlər ayrılır. Belə ki, ayrılan maliyyə vəsaitləri 2015-ci ildə 2014-cü illə müqayisədə 21,7 % artdığı halda, 2016-cı ildə 2015-ci illə müqayisədə 6,3 % azalma olmuşdur. Bununla yanaşı, sahibkarlıq subyektlərinin maliyyələşməsi məqsədi ilə müxtəlif mənbələrindən vəsaitlər ayrılmışdır. Bu mənbələrin dinamikası aşağıdakı kimidir: lizinq üzrə - 2015-ci ildə 2014-cü illə müqayisədə 23,6 % artım, 2016-cı ildə 2015-ci illə müqayisədə 82,9 % artım; şəxsi kapital üzrə -2015-ci ildə 2014-cü illə müqayisədə 31,8 % artım, 2016-cı ildə 2015-ci illə müqayisədə 3,6 % azalma olmuşdur.

Bütün bu və ya digər araşdırmalar onu göstərir ki, sahibkarlıq subyektlərinin maliyyə təminatı probleminin həlli məqsədi ilə qəbul edilmiş çoxlu sayda qanun və sərəncamlara, proqram və konsepsiyalara, dövlət yardımlarına baxmayaraq hələdə onların maliyyə təminatı problemi bütövlükdə həll edilməmişdir.

Bu səbəbdən ölkəmizdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə resurslarının səmərəli təşkili və idarə edilməsinin mövcud mexanizmlərinin təkmilləşdirilməsi aktualdır.

**Problemin öyrənilmə vəziyyəti.** Sahibkarlığın yaranması və inkişafı problemlərinin tədqiqinə A.Smit, R.Kantilyon, J.B.Sey, K.Marks, A.Marşall, İ.Tyünen, F.Xayek, Y.Şumpeter, İ.Kirçner və bu kimi iqtisadi fikrin klassik nümayəndələri öz töhfəsini vermişdir. Bununla yanaşı ölkədə sahibkarlığın kompleks şəkildə öyrənilməsi və regionlarda sahibkarlığın inkişafının nəzəri-metodoloji aspektləri üzrə respublika-mızın iqtisadçı alimlərindən Z.Ə.Səmədzadə, B.X.Ataşov T.N.Əliyev, A.F.Musayev, R.P.Sultanova, A.H.Həsənov, A.M.Məhər-rəmov, T.Paşa, Q.N.Manafov, E.A.Quliyev, İ.H.Alıyev, K.A.Sarıyev, Q.S.Süleymanov, P.Ə.Həsənova, Z.H.Rzayev, M.M.Bağırov, M.M.Sadıqov, A.B.Abbasov, R.T.Əliyev, R.Balayev, R.Həsənov, F.Rəhmanov, Ə.X.Nuriyev, İ.Z.Seyfullayev, E.Bayramova və başqaları

öz əsərlərində regional sahibkarlığın inkişafı, bu sahədə mövcud olan maliyyə problemləri ilə bağlı ayrı-ayrı nəzəri-metodoloji və praktiki məsələlərin tədqiqinə geniş yer vermişlər.

Bu alimlərin tədqiqat işlərini yüksək qiymətləndirməklə, onu qeyd etmək lazımdır ki, onların tədqiqat əsərlərində əsas diqqət daha çox sahibkarlıq subyektlərinin kommersiya sferasında fəaliyyətinə, o cümlədən topdansatış və pərakəndə ticarətdə onların müdafiəsinin hüquqi aspektlərinə yetirilir. Lakin, bu tədqiqat işlərində sahibkarlıq subyektlərinin maliyyə resurslarından səmərəli istifadə edilməsi yolları kompleks şəkildə elmi cəhətdən araşdırılmamışdır.

Bütün bunlar ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün əlverişli maliyyə-kredit mühitinin formalaşdırılmasını, maliyyə resurslarından səmərəli istifadə və təminatı üzrə elmi əsaslandırılmış strategiyanın işlənib hazırlanmasını aktual edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi müasir dövrdə sahibkarlıq fəaliyyətinin davamlı və dayanıqlı inkişafının təminatı üçün onun maliyyə resurslarından səmərəli istifadənin yeni metod və mexanizmlərini işləyib hazırlamaqdır.

Bu məqsədə çatmaq üçün tədqiqat işində aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- qloballaşan müasir dövrdə sahibkarlıq subyektlərinin maliyyə resursları təminatının nəzəri-metodoloji aspektlərinin öyrənilməsi və beynəlxalq meyarlar nəzərə alınmaqla ümumiləşdirmələrin aparılması;
- bazar iqtisadiyyatı şəraitində sahibkarlıq subyektlərinin ölkə iqtisadiyyatında oynadığı rol və dünya ölkələrində sahibkarlığın müasir vəziyyətinə nəzər yetirərək, respublikamız üçün müəyyən təkliflərin və tövsiyələrin hazırlanması;
- maliyyə resurslarının qiymətləndirmə meyarlarını tədqiq etməklə onların inkişaf meyillərini aşkar etmək;
- sahibkarlıq subyektlərinin maliyyə resurslarının mövcud vəziyyətini təhlil etməklə, onun yeni mənbələrini aşkar etmək;
- ölkədə sahibkarlıq subyektlərinin xüsusi vəsaitlərlə təminini və kredit təminatını təhlil edərək, inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq, onların xüsusi formalaşma mənbələrini aşkar etmək;
- sahibkarlıq subyektlərinin maliyyə resurslarının səmərəli təşkili və idarə edilməsinin iqtisadi riyazi və statistik modellərinin qurulması;
- respublikamızda sahibkarlıq subyektlərinin maliyyə resursla-

rının tənzimlənməsi sahəsində dövlətin rolunu aşkara çıxararaq, daha mütərəqqi tənzimləmə metodlarının təklif edilməsi və dövlət siyasətinin istiqamətlərinin müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti kimi** ölkədə iqtisadi fəaliyyət növləri ilə məşğul olan və o cümlədən sənaye sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektləri seçilmişdir.

**Tədqiqatın predmeti** Azərbaycanda fəaliyyət göstərən müxtəlif sahibkarlıq subyektlərinin maliyyə resurslarının səmərəli təşkili və idarə edilməsi prosesləridir.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** yerli və xarici ölkələrin iqtisadçı alimlərinin əsərləri, regionların inkişafı, kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları, Nazirlər Kabinetinin qərar və sərəncamları və digər normativ-hüquqi aktlar təşkil edir.

Dissertasiya işində iqtisadi və sistemli təhlil, riyazi-statistik modelləşdirmə, ekspert qiymətləndirmə, qruplaşdırma və digər üsullardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyinin və Vergilər Nazirliyinin məlumatları, Sahibkarlığa Kömək Milli Fondunun və Azərbaycan Respublikası Mərkəzi Bankının uçot sənədləri, mövzu ilə bağlı beynəlxalq və respublika əhəmiyyətli elmi-praktiki jurnalların və konfransların məqalələri və materialları, həmçinin internet resursları təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Azərbaycanda sahibkarlıq subyektlərinin fəaliyyəti və onun inkişaf meyarlarının təkmilləşdirilməsi istiqamətləri elmi cəhətdən əsaslandırılmışdır;
- Ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə resurslarına olan tələbatın ödənilməsinin yeni mənbələri işlənilib hazırlanmışdır;
- Respublikamızda sahibkarlıq subyektlərinin maliyyə resursları ilə onun maliyyələşmə mənbələri arasında korrelyasiya əlaqəsi müəyyənləşdirilərək, onların inkişaf etdirilməsi yolları təklif edilmişdir;
- Ölkədə sənaye sektoruna yatırılmış investisiyaların həcmi ilə onun mənbələri arasında korrelyasiya əlaqələri qurulmuş və onlardan daha səmərəli istifadə yolları təklif edilmişdir;

- Ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı ilə ayrı-ayrı iqtisadi fəaliyyət sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı arasında korrelyasiya əlaqələrinin proqnoz modeli təklif edilmiş və onun strateji istiqamətləri təklif edilmişdir;

- Sənaye sahələrində, o cümlədən emal sənayesində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı ilə ona daxil olan altsahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı arasında korrelyasiya əlaqələri müəyyənləşdirilmiş və onun innovativ inkişaf etdirilməsi yolları işlənib hazırlanmışdır;

- Ümumi Daxili Məhsul ilə onun göstəriciləri arasında korrelyasiya əlaqələri müəyyənləşdirilmiş və onlardan daha səmərəli istifadənin yolları işlənib hazırlanmışdır;

- Sahibkarlıq subyektlərinin maliyyə resurslarından səmərəli istifadə edilməsində dövlət tənzimləməsinin strateji istiqamətləri təklif edilmişdir.

**Tədqiqat işinin nəzəri və təcrübi əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiya işi ölkənin davamlı və dayanıqlı iqtisadi inkişafı üzrə dövlət səviyyəli konsepsiyaların, proqramların hazırlanmasında, ali məktəblərdə uyğun ixtisas üzrə tədris olunan fənlərin proqramlarının hazırlanmasında və tədrisində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunması.** Tədqiqat işinin əsas nəzəri və metodoloji müddəaları, irəli sürülmüş təklif və tövsiyələri həm yerli, həm də beynəlxalq səviyyədə keçirilən elmi-praktiki konfranslarda məruzə edilmiş və tezislər konfransların materiallarında dərc olunmuşdur.

Dissertasiya işinin əsas müddəalarını əks etdirən 16 elmi məqalə və tezis Ali Attestasiya Komissiyasının tələbatına uyğun həm yerli və həm də xarici elmi jurnallarda, eləcə də konfrans materiallarında çap edilmişdir.

Bununla yanaşı, tədqiqatın nəticələri təklif və tövsiyələr şəklində “Azərbaycan sahibkarlar konfederasiyası”-na təqdim olunmuş və istifadə edilməsi üçün qəbul edilmişdir (216 №-li Arayış, 02.10.2017).

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, 9 paraqraf, 30 cədvəl, 20 şəkil, nəticə və təkliflər, eləcədə istifadə edilmiş 139 ədəbiyyat siyahısından ibarət olmaqla 142 səhifə həcmindədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsədi və vəzifələri, obyekti, predmeti, informasiya bazası, elmi yeniliyi, tədqiqat işinin nəzəri və əhəmiyyəti, tədqiqatın nəticələrinin sınaqdan keçirilməsində və istifadə olunmasına dair məlumat verilmişdir.

Dissertasiya işinin **birinci fəsli "Sahibkarlıq subyektlərinin maliyyə resursları təminatının nəzəri-metodoloji aspektləri"** adlanır. Burada sahibkarlıq subyektlərinin maliyyə resurslarının idarə edilməsinin və qiymətləndirilməsinin nəzəri-metodoloji və praktiki məsələləri, o cümlədən onların formalaşması mexanizmlərinin tədqiqi öz əksini tapmışdır.

Bu fəsildə sahibkarlıq fəaliyyətinin nəzəri və metodoloji aspektləri üzrə klassik iqtisadi nəzəriyyənin baniləri hesab edilən A.Smit, X.Fridrix, P.Druker, Y.Şumpeter, M.Veber, F.Xayek, J.B.Sey və digərlərinin, o cümlədən Azərbaycanın iqtisadçı alimlərindən Z.Ə.Səmədzadə, A.F.Musayev, İ.Z.Seyfullayev, T.N.Əliyev, A.M.Əhmədli, R.M.Məmmədova və digərlərinin sahibkarlıq fəaliyyətinə dair baxışları da tədqiq edilir.

Burada sahibkarlıq subyektlərinin maliyyə resursları ilə təminatının beynəlxalq təcrübəsi də araşdırılır və göstərilir ki, maliyyə resursları - müəssisələrin, təşkilatların və dövlətin sərəncamında olan, maliyyə-kredit sistemi qarşısında öhdəliklərin yerinə yetirilməsi, işçilərin maddi stimullaşdırılması, geniş təkrar istehsal xərclərinin həyata keçirilməsi üçün nəzərdə tutulmuş pul gəlirləri və yığımlarıdır. Bununla yanaşı, bir qrup iqtisadçılar sahibkarlıq subyektlərinin maliyyə resurslarını dövriyyə vəsaitlərinin düzgün idarə edilməsinin əsas obyekti kimi qəbul edirlər. Alimlərin başqa bir qrupu isə sahibkarlıq subyektlərinin maliyyə resurslarının müəyyənləşdirilmə mənbələrinin yaradılmasında ictimai məhsulu bir kateqoriya kimi seçirlər.

Bu fəsildə eyni zamanda sahibkarlıq subyektlərinin maliyyə resurslarının qiymətləndirilməsi meyarları da geniş tədqiq olunur. Bu fəsildən belə nəticəyə gəlinir ki, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq hər bir sahibkarlıq subyekti stabil və davamlı fəaliyyət göstərmək üçün zəruri həcmdə maliyyə resurslarına malik olmalıdır. Bütün bunlar isə sahibkarlıq subyektlərinin maliyyə mənbələrinin mövcud vəziyyətinin təhlilini zəruri edir.

Dissertasiya işinin **ikinci fəsli** “**Azərbaycanda sahibkarlıq subyektərinin maliyyə resurslarının mövcud vəziyyətinin qiymətləndirilməsi**” adlanır. Bu fəsildə Azərbaycanda sahibkarlıq subyektlərinin maliyyə təminatının mövcud vəziyyəti təhlil edilmişdir.

Bu bölümdə göstərilir ki, 2016-cı il üzrə ölkəmizdə sahibkarlıq subyektlərinin ümumi sayı 698310 olub. Əvvəlki illə müqayisədə isə, 2016-cı ildə sahibkarlıq subyektlərinin sayı 5,7% artıb. Onların 14,6%-ni hüquqi şəxslər, 85,4%-ni isə fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər təşkil edir. Bununla yanaşı, 2016-cı ildə hüquqi şəxs yaratmadan fərdi sahibkarlıq formasında fəaliyyət göstərən fiziki şəxslərin sayı 5,6% artaraq 611394 vahidə çatmışdır.

Bu fəsildə eyni zamanda sahibkarlıq subyektlərinin maliyyə resurslarının mənbələri-şəxsi kapital, lizinq, qrantlar, kreditlər (bank kreditləri, kommersiya təşkilatları və kredit kooperativləri) və fondlar təhlil edilmişdir. Belə ki, 1993-cü ildə yaranan Sahibkarlığa Kömək Milli Fondu (SKMF) vasitəsi ilə 2016-cı ildə 2500-ə yaxın sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 190 milyon manat güzəştli kredit verilmişdir.

Burada sahibkarlıq subyektlərinin xüsusi vəsaitlərlə təminatının təhlili də aparılmış və göstərilmişdir ki, əhalinin əmanətləri 2015-ci ildə 9473,6 mln. manatdan 2016-cı ildə 7605,8 mln. manata enmişdir. Əhalinin şəxsi vəsaitlərinin formalaşmasına onların gəlir və xərclər göstəricisi demək olar bir başa təsir edir. Əhalinin gəlirləri 37 562,0 mln. manat, xərcləri isə 28021,2 mln. manat olmuşdur. Bu isə əhalinin şəxsi vəsaitləri hesabına iqtisadiyyata yönəldilən investisiyaların tərkibinə təsir göstərir. Bununla yanaşı, burada qeyd edilir ki, ölkə iqtisadiyyatına kommersiya bankları tərəfindən kredit qoyuluşları 2015-ci ildə 18542,6 mln. manat, uzunmüddətli kreditlərin həcmi 14611,2 mln. manat olduğu halda, 2016-cı ildə bu göstəricilər uyğun olaraq 21730,4 mln. manat və 16433,1 mln. manat olmuşdur.

Bu fəsildə göstərilir ki, hazırda Azərbaycanda neft bölməsindən kənarda fəaliyyət göstərən sahələrin inkişaf etdirilməsində bir sıra beynəlxalq malliyə-kredit qurumları: Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və s. yaxından iştirak edirlər.

Bu fəsildən belə nəticəyə gəlmək olar ki, respublikamızda sahibkarlıq subyektlərinin inkişafı üçün görülən tədbirlərə və verilən

güzəştli kreditlərə baxmayaraq hələ də onların maliyyə təminatının səmərəli təşkilinə və idarə edilməsinə ehtiyac var.

Dissertasiya işinin **üçüncü fəsli "Sahibkarlıq subyektlərinin maliyyə resurslarının səmərəli təşkili və idarə edilməsinin riyazi və statistik modellərinin qurulması"** adlanır.

Bu fəsildə beynəlxalq təcrübədən istifadə edərək ölkədə sahibkarlıq subyektlərinin maliyyə resurslarından səmərəli istifadə edilməsində yeni maliyyələşmə mənbəyi kimi françayzinqdən istifadə edilməsi təklif edilir (Şəkil 1).




**Şəkil 1.Sahibkarlıq subyektlərinin maliyyələşmə mənbələri**

Belə ki, françayzinq, dünya təcrübəsində sahibkarlıq subyektlərinin maliyyə mənbəyinin mütərəqqi forması kimi qəbul olunmuş və xarici ölkələrdə geniş yayılmışdır. Lakin, bu mənbə Azərbaycanda yeni biznes texnologiyasının tətbiqində özünün ilkin mərhələsini keçir. Azərbaycanda françayzinq maliyyələşmə metodunu tətbiq etmək üçün ilk növbədə yüksək rəqabət qabiliyyətinə malik sahibkarlıq subyektlərini formalaşdırmaq lazımdır. Hazırda ölkəmizdə bu

maliyyələşmə metodunu tətbiq etməklə “Pizza Hat”, “Mc.Donalds”, “Coca-Cola” və s. iri şirkətlərin filialları uğurla öz fəaliyyətini davam etdirirlər.

Bu fəsildə ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə resursları ilə onun maliyyələşmə mənbələri arasında korrelyasiya əlaqəsi tapılmışdır. Əgər ekstropolyasiya metodundan istifadə etsək, bu əlaqə aşağıdakı formada olar:

$$Y= a_0 * X_1^{a1} * X_2^{a2} * X_3^{a3} * X_4^{a4} \quad , \quad (1)$$

Burada: Y-sahibkarlıq subyektlərinə yönəlmiş maliyyə resursları; $X_1$-Şəxsi kapital; $X_2$-lizinq; $X_3$-qrantlar; $X_4$-fondlar; $a_i(i=0,4)$-reqressiya əmsallarıdır.

Reqressiya modelinin alqoritmindən istifadə etməklə aşağıdakı reqressiya əmsalları tapılmışdır:

$$a_0 = 0{,}09; \; a_1 = 1{,}7; \; a_2 = 0{,}2; \; a_3 = 0{,}2; \; a_4 = 0{,}1.$$

$$R^2 = 0{,}98, \; SX = 0{,}01$$

Bu əmsalları (1)-də yerinə yazsaq, aşağıdakı reqressiya modelini alarıq.

$$Y= 0{,}09 * X_1^{1,7} * X_2^{0,2} * X_3^{0,2} * X_4^{0,1} \quad (2)$$

(2) modeli aşağıdakı mülahizələri söyləməyə əsas verir:

1. Şəxsi kapitalın həcminin 1 vahid artması sahibkarlıq subyektlərinə yönəlmiş maliyyə resurslarının 1,7 vahid artmasına gətirib çıxarar.
2. Lizinqin həcminin 1 vahid artması sahibkarlıq subyektlərinə yönəlmiş maliyyə resurslarının 0,2 vahid artmasına gətirib çıxarar.
3. Qrantların həcminin 1 vahid artması sahibkarlıq subyektlərinə yönəlmiş maliyyə resurslarının 0,2 vahid artmasına gətirib çıxarar.
4. Fondların həcminin 1 vahid artması sahibkarlıq subyektlərinə yönəlmiş maliyyə resurslarının 0,1 vahid artmasına gətirib çıxarar.

Qeyd etmək lazımdır ki, (2) modelindəki 0,09 əmsalı modeldə nəzərə alınmayan iqtisadi göstəricilərin xüsusi çəkisini göstərir. $R^2$=0,98 determinasiya əmsalı olub, korrelyasiyanın səviyyəsini

göstərir. SX=0,01-isə statistik xətadır, yəni modelin adekvatlığını göstərir.

Bu fəsildə həmçinin, sahibkarlıq subyektlərinin maliyyə resursları ilə onun kreditləşmə mənbələri arasında korrelyasiya asılılığı da qurulmuşdur. Əgər ekstropolyasiya metodundan istifadə etsək, bu əlaqə aşağıdakı formada olar:

$$Y= a_0*X_1^{a1}*X_2^{a2}*X_3^{a3} ,(3)$$

Burada: Y-sahibkarlıq subyektlərinə yönəldilmiş cəmi vəsaitlər; $X_1$-banklar; $X_2$ - kommersiya təşkilatları; $X_3$-kredit koorperativləri; $a_i$ (i=0,3) - reqressiya əmsallarıdır.

$$a_0 =2,2;\ a_1=-1,9;\ a_2=2,0;\ a_3=1,4.$$

$$R^2=0,99,\ SX=0,01$$

Bu əmsalları (3)-də yerinə yazsaq, aşağdakı reqressiya modelini alarıq.

$$Y= 2,2*X_1^{-1,9}*X_2^{2,0}*X_3^{1,4}\ (4)$$

(4) modeli aşağıdakı mülahizələri söyləməyə əsas verir:

1. Bankların verdiyi kreditlərin həcminin 1 vahid artması sahibkarlıq subyektlərinə yönəldilmiş cəmi vəsaitlərin həcminin 1,9 vahid azalmasına gətirib çıxarar.

2. Kommersiya təşkilatlarının verdiyi kreditlərin həcminin 1 vahid artması sahibkarlıq subyektlərinin maliyyə resurslarının 2 vahid artmasına gətirib çıxarar.

3. Kredit koorperativlərinin verdiyi kreditlərin həcminin 1 vahid artması sahibkarlıq subyektlərinin maliyyə resurslarının 1,4 vahid artmasına gətirib çıxarar.

Qeyd etmək lazımdır ki, (4) modelindəki 2,2 əmsalı (3) modelində nəzərə alınmayan iqtisadi göstəricilərin xüsusi çəkisini göstərir. $R^2$=0,99 determinasiya əmsalı olub, korrelyasiyanın səviyyəsini göstərir. SX=0,01-isə statistik xətadır, yəni modelin adekvatlığını göstərir.

Bununla yanaşı, bu fəsildə, iqtisadi fəaliyyət sahələri üzrə cəmi sahibkarlıq subyektlərinin sayı ilə ayrı-ayrı iqtisadi fəaliyyət sahələri

üzrə sahibkarlıq subyektlərinin sayı arasında korrelyasiya modeli qurulmuşdur. Əgər ekstropolyasiya metodundan istifadə etsək, bu model aşağıdakı formada olar:

$$Y= a_0 * X_1^{a1} * X_2^{a2} * X_3^{a3} * X_4^{a4} * X_5^{a5} * X_6^{a6} \quad (5)$$

Burada, Y-iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin sayı; $X_1$-kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələri üzrə sahibkarlıq subyektlərinin sayı; $X_2$-sənaye sahələri üzrə sahibkarlıq subyektlərinin sayı; $X_3$-tikinti sahələri üzrə sahibkarlıq subyektlərinin sayı; $X_4$-nəqliyyat və anbar təsərrüfatı üzrə sahibkarlıq subyektlərinin sayı; $X_5$-informasiya və rabitə sahələri üzrə sahibkarlıq subyektlərinin sayı; $X_6$-digər sahələr üzrə sahibkarlıq subyektlərinin sayı; $a_i$ (i= 0,6)- reqressiya əmsallarıdır.

Reqressiya modelinin alqoritmindən istifadə etməklə aşağıdakı reqressiya əmsalları tapılmışdır:

$a_0$=27,6; $a_1$=3,7; $a_2$=0,9; $a_3$=2,7 $a_4$=7,4; $a_5$=1,1; $a_6$=0,04.

$R^2$=0,99, SX=0,01

Bu əmsalları (7)-də yerinə yazsaq, aşağdakı reqressiya modelini alarıq.

$$Y= 27,6 * X_1^{3,7} * X_2^{0,9} * X_3^{2,7} * X_4^{7,4} * X_5^{1,1} * X_6^{0,04} \quad (6)$$

(6) modeli aşağıdakı mülahizələri söyləməyə əsas verir:

1. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələri üzrə sahibkarlıq subyektlərinin sayının 1 vahid artması iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin sayının 3,7 vahid artmasına gətirib çıxarar.

2. Sənaye sahələri üzrə sahibkarlıq subyektlərinin sayının 1 vahid artması iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin sayının 0,9 vahid artmasına gətirib çıxarar.

3. Tikinti sahələri üzrə sahibkarlıq subyektlərinin sayının 1 vahid artması iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin sayının 2,7 vahid artmasına gətirib çıxarar.

4. Nəqliyyat və anbar təsərrüfatı sahələri üzrə sahibkarlıq subyektlərinin sayının 1 vahid artması iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin sayının 7,4 vahid artmasına gətirib çıxarar.

5. İnformasiya və rabitə sahələri üzrə sahibkarlıq subyektlərinin sayının 1 vahid artması iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin sayının 1,1 vahid artmasına gətirib çıxarar.

6. Digər sahələr üzrə sahibkarlıq subyektlərinin sayının 1 vahid artması iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin sayının isə 0,04 vahid artmasına gətirib çıxarar.

Qeyd etmək lazımdır ki, (6) modelindəki 27,6 əmsalı (5) modelində nəzərə alınmayan iqtisadi göstəricilərin xüsusi çəkisini göstərir. $R^2$=0,99 determinasiya əmsalı olub, korrelyasiyanın səviyyəsini göstərir. SX=0,01-isə statistik xətadır, yəni modelin adekvatlığını göstərir.

Bununla yanaşı, bu fəsildə sənaye sektoruna yatırılmış investisiya ilə onun tərkib hissələri arasında korrelyasiya əlaqəsi də tapılıb. Əgər ekstropolyasiya metodundan istifadə etsək, bu əlaqə aşağıdakı formada olar:

$$Y= a_0 * X_1^{a1} * X_2^{a2} * X_3^{a3} * X^{a4}, \quad (7)$$

Burada: Y-Sənaye sektoruna yönəldilmiş investisiyaların həcmi; $X_1$-Təkrar emal sferasında investisiyaların həcmi; $X_2$-Xarici investisiyaların həcmi; $X_3$-SKMF xətti üzrə kreditlərin həcmi, $X_4$-Lizinqin həcmi; $a_i$ (i=0,4)- reqressiya əmsallarıdır.

Reqressiya modelinin alqoritmindən istifadə etməklə aşağıdakı reqressiya əmsalları tapılmışdır:

$$a_0 =0{,}01;\ a_1 =0{,}08;\ a_2 =4{,}07;\ a_3 =15{,}4;\ a_4 =13{,}5.$$

$$R^2 =0{,}99,\ SX=0{,}01$$

Bu əmsalları (5)-də yerinə yazsaq, aşağıdakı reqressiya modelini alarıq.

$$Y= 0{,}01 * X_1^{0{,}08} * X_2^{4{,}07} * X_3^{15{,}4} * X_4^{13{,}5} \quad (8)$$

(8) modeli aşağıdakı mülahizələri söyləməyə əsas verir:

1. Təkrar emal sferasında investisiyaların həcminin 1 vahid artması sənaye sektoruna yönəldilmiş investisiyanın həcminin 0,08 vahid artmasına gətirib çıxarar.

2. Xarici investisiyaların həcminin 1 vahid artması sənaye sektoruna yönəldilmiş investisiyanın həcminin 4,07 vahid artmasına gətirib çıxarar.

3. SKMF xətti üzrə kreditlərin həcminin 1 vahid artması sənaye sektoruna yönəldilmiş investisiyanın həcminin 15,4 vahid artmasına gətirib çıxarar.

4. Lizinqın həcminin 1 vahid artması sənaye sektoruna yönəldilmiş investisiyanın həcminin 13,5 vahid artmasına gətirib çıxarar.

Qeyd etmək lazımdır ki, (8) modelindəki 0,01 əmsalı (7) modelində nəzərə alınmayan iqtisadi göstəricilərin xüsusi çəkisini göstərir. $R^2$=0,99 determinasiya əmsalı olub, korrelyasiyanın səviyyəsini göstərir. SX=0,01-isə statistik xətadır, yəni modelin adekvatlığını göstərir.

Bu fəsildə sənaye üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı ilə onun alt sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı arasında korrelyasiya əlaqəsi qurulmuşdur. Əgər ekstropolyasiya metodundan istifadə etsək, bu model aşağıdakı formada olar:

$$Y= a_0 * X_1^{a1} * X_2^{a2} * X_3^{a3} * X_4^{a4} \quad (9)$$

Burada: Y-sənaye üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı; $X_1$-mədənçıxarma sənayesi üzrə müəssisələrin sayı; $X_2$-emal sənayesi üzrə müəssisələrin sayı; $X_3$-elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı üzrə müəssisələrin sayı; $X_4$-su təchizatı tullantılarının təmizlənməsi və emalı üzrə müəssisələrin sayı; $a_i$ (i=0,4)- reqressiya əmsallarıdır.

Reqressiya modelinin alqoritmindən istifadə etməklə aşağıdakı reqressiya əmsalları tapılmışdır:

$$a_0 =0,1; \ a_1 =0,1; \ a_2 =0,8; \ a_3 =0,05; \ a_4 =0,1$$

$$R^2 =0,99, SX=0,01$$

Bu əmsalları (9)-də yerinə yazsaq, aşağıdakı reqressiya modelini alarıq.

$$Y= 0,1*X_1^{0,1}*X_2^{0,8}*X_3^{0,05}*X_4^{0,1} \quad (10)$$

(10) modeli aşağıdakı mülahizələri söyləməyə əsas verir:

1. Mədənçıxarma sənayesi müəssisələrinin sayının 1 vahid artması sənaye üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının 0,1 vahid artmasına gətirib çıxarar.

2. Emal sənayesi müəssisələrinin sayının 1 vahid artması sənaye üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının 0,8 vahid artmasına gətirib çıxarar.

3. Elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı müəssisələrinin sayının 1 vahid artması sənaye üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının 0,05 vahid artmasına gətirib çıxarar.

4. Su təchizatı tullantıların təmizlənməsi və emalı müəssisələrinin sayının 1 vahid artması sənaye üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının 0,1 vahid artmasına gətirib çıxarar.

Qeyd etmək lazımdır ki,(10) modelindəki 0,1 əmsalı (9) modelində nəzərə alınmayan iqtisadi göstəricilərin xüsusi çəkisini göstərir $R^2$ =0,99 determinasiya əmsalı olub, korrelyasiyanın səviyyəsini göstərir. SX=0,01-isə statistik xətadır, yəni modelin adekvatlığını göstərir.

Bu fəsildə eyni zamanda, emal sənayesində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı ilə ona daxil olan altsahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı arasında korrelyasiya əlaqəsi də qurulmuşdur.

Əgər ekstropolyasiya metodundan istifadə etsək, bu əlaqə aşağıdakı formada müəyyən edilir:

$$Y= a_0*X_1^{a1}*X_2^{a2}*X_3^{a3}*X_4^{a4}*X_5^{a5}, \quad (11)$$

Burada: Y-Emal sənayesində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı; $X_1$-tütün məmulatlarının istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin sayı; $X_2$-Geyim istehsalı və rənglənməsi sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı; $X_3$-Mebeldən başqa ağacın emalı və ağacdan məmulatların və tıxacın

istehsal sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı; $X_4$-Kağız və karton istehsalı sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı; $X_5$-Neft məhsullarının istehsalı sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı; $a_i$ (i=0,5)- reqressiya əmsallarıdır.

Reqressiya modelinin alqoritmindən istifadə etməklə aşağıdakı reqressiya əmsalları tapılmışdır:

$$a_0=6{,}6;\ a_1=0{,}1;\ a_2=0{,}1;\ a_3=0{,}07;\ a_4=0{,}2;\ a_5=0{,}1;$$

$$R^2=0{,}99,\ SX=0{,}01$$

Bu əmsalları (11) yerinə yazsaq, onda bu asılılıq aşağıdakı şəkilə düşər:

$$Y= 6{,}6 * X_1^{0,1} * X_2^{0,1} * X_3^{0,07} * X_4^{0,2} * X_5^{0,1} \quad (12)$$

(12) modeli aşağıdakı mülahizəni söyləməyə əsas verir.

1.Tütün məmulatlarının istehsalı sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının 1 vahid artması emal sənayesi üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının 0,1 vahid artmasına gətirib çıxarar.

2.Geyim istehsalı və rənglənməsi sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının 1 vahid artması emal sənayesi üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının 0,1 vahid artmasına gətirib çıxarar.

3.Mebeldən başqa ağacın emalı və ağacdan məmulatların və tıxacın istehsalı sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının 1 vahid artması emal sənayesi üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının 0,07 vahid artmasına gətirib çıxarar.

4.Kağız və karton istehsalı sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının 1 vahid artması emal sənayesi üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının 0,2 vahid artmasına gətirib çıxarar.

5.Neft məhsullarının istehsalı sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının 1 vahid artması emal sənayesi üzrə

fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının 0,1 vahid artmasına gətirib çıxarar.

Qeyd etmək lazımdır ki, (12) modelindəki 6,6 əmsalı (11) modelində nəzərə alınmayan iqtisadi göstəricilərin xüsusi çəkisini göstərir $R^2$=0,98 determinasiya əmsalı olub, korrelyasiyanın səviyyəsini göstərir. SX=0,01-isə statistik xətadır, yəni modelin adekvatlığını göstərir.

Bu fəsildə, Ümumi Daxili Məhsul ilə ona daxil olan göstəricilər arasında korrelyasiya əlaqələri də tapılmışdır. Əgər ekstropolyasiya metodundan istifadə etsək, bu əlaqə aşağıdakı formada olar:

$$Y= a_0 * X_1^{a1} * X_2^{a2} * X_3^{a3} * X^{a4} \quad (13)$$

Burada: Y-Ümumi Daxili Məhsulun həcmi; $X_1$-investisiyanın həcmi; $X_2$-ixracın həcmi; $X_3$-idxalın həcmi; $X_4$- verginin həcmi; $a_1$ (i=0,4)- reqressiya əmsallarıdır;

Reqressiya modelinin alqoritmindən istifadə etməklə, aşağıdakı reqressiya əmsalları tapılmışdır:

$$a_0 =1,2; a_1 =0,5; a_2 =0,1; a_3 =0,05; a_4 =0,5.$$

$$R^2 =0,99, SX=0,01$$

Bu əmsalları (13)-də yerinə yazsaq, aşağıdakı reqressiya modelini alarıq.

$$Y= 1,2 * X_1^{0,5} * X_2^{0,1} * X_3^{0,05} * X_4^{0,5} \quad (14)$$

(14) modeli aşağıdakı mülahizələri söyləməyə əsas verir:

1.İnvestisiya qoyuluşunun 1 vahid artması Ümumi Daxili Məhsulun həcminin 0, 5 vahid artmasına gətirib çıxarar.

2.İxracın həcminin 1 vahid artması Ümumi Daxili Məhsulun həcminin 0,1 vahid artmasına gətirib çıxarar.

3.İdxalın həcminin 1 vahid artması Ümumi Daxili Məhsulun həcminin 0,05 vahid artmasına gətirib çıxarar.

4.Vergi həcminin 1 vahid artması Ümumi Daxili Məhsulun həcminin 0,5 vahid artmasına gətirib çıxarar.

Qeyd etmək lazımdır ki, (14) modelindəki 1,2 əmsalı (13) modelində nəzərə alınmayan iqtisadi göstəricilərin xüsusi çəkisini göstərir. $R^2$=0,98 determinasiya əmsalı olub, korrelyasiyanın səviyyəsini göstərir. SX=0,01-isə statistik xətadır, yəni modelin adekvatlığını göstərir.

Bu fəslin sonunda sahibkarlıq subyektlərinin maliyyə resurslarından səmərəli istifadə edilməsində dövlət tənzimlənməsinin başlıca istiqamətləri də göstərilib.

**Tədqiqatın əsas nəticələrini aşağıdakı kimi qeyd etmək olar:**

1. Ölkəmizdə sahibkarlıq subyektlərinin qeydiyyatı sistemi "bir pəncərə" prinsipi ilə həyata keçirilir. Belə ki, 2014-2016-cı il üzrə hüquqi şəxslərin sayı 79 minə yaxınlaşmış, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sayı 432 mini ötüb keçmişdir. Sahibkarlıq subyektlərinin sayı 2015-ci ildə 677231, 2016-cı ildə isə 715585 olmuşdur ki, bunlardan 2015-ci ildə 183271, 2016-cı ildə isə 187598 nəfəri kiçik sahibkarlıq subyektləri olmuşdur. Son illər kiçik sahibkarlıq müəssisələrində işləyən muzdlu işçilərin sayı isə 1,4 % artmışdır. Yaradılmış əlavə dəyərdə isə 20% artım olmuş və ümumi əlavə dəyər 1620,0 milyon manat təşkil etmişdir.

2. İri, orta və kiçik müəssisələrin sayını sənayenin timsalında müqayisə etsək sənaye sahəsində işçilərin sayına, fəaliyyət göstərən müəssisələrin sayına nəzər yetirsək görərik ki, 2016-cı ildə ölkədə fəaliyyət göstərən müəssisələrin 83017 vahidi və ya 79,7 % kiçik müəssisələr olub. Ancaq ölkədə fəaliyyət göstərən müəssisələrin böyük hissəsi kiçik və orta sahibkarlıq subyektləri olsa da, (92%), bu sektorun Ümumi Daxili Məhsulu (ÜDM) və məşğulluqdakı payı kiçikdir.

3. Sənaye sektoru üzrə əsas kapitala yönəlmiş investisiyalar 2015-ci ildə 8 500, 2016-cı ildə isə 9950 milyon manat olmuşdur, Azərbaycanda fəaliyyət göstərən 100 faiz xarici investisiyalı şirkətlərin sayı 2015-ci illə müqayisədə 2016-cı ildə 3 faizdən çox artaraq 5987-ə çatıb. Dövlət proqramlarının icra olunduğu 10 il ərzində Ümumi Daxili Məhsulu 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əmək haqqı 5,5 dəfə artmışdır.

4. Sahibkarlıq subyektlərinin maliyyə resursları ilə təminatı məqsədilə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2015-ci ildə 719726,1 min manat və 2016-cı ildə isə 554485,70 min manat vəsait ayrılmışdır. Bununla yanaşı, sahibkarlıq subyektlərinin

maliyyələşməsinə müxtəlif mənbələrdən - lizinq üzrə 2014-cü ildə 275,00 min manat, 2015-ci ildə 340,00 min manat və 2016-cı ildə isə 503,00 min manat; şəxsi kapital üzrə 2014-cü ildə 7188,30 min manat, 2015-ci ildə 9473,60 min manat və 2016-cı ildə isə 7448,70 min manat vəsait ayrılmışdır.

Bütün bunlarla yanaşı, respublikamızda sahibkarlıq subyektlərinin maliyyə resurslarından səmərəli istifadə edilməsi məqsədi ilə aşağıdakı istiqamətlərdə işlərin aparılması məqsədəuyğun olardı:

1. Sahibkarlıq subyektlərinin maliyyələşdirmədə tətbiq olunan mövcud metodlar və üsullar təkmilləşdirilməlidir. Bu baxımdan inkişaf etmiş ölkələrinin bu sahədəki təcrübəsindən və həmin ölkələrin sahibkarlığın maliyyələşdirilməsində tətbiq edilən üsullardan istifadə etməsi zəruridir.

2. Sahibkarlıq subyektlərinin fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın təkmilləşdirilməsi işinin davam etdirilməsi, xüsusilə də "Sahibkarlıq haqqında" qanunun yenidən işlənilməsi və bəzi dəyişikliklərin edilməsi, sahibkarlıq fəaliyyətini əhatə edən yeni dövlət proqramlarının qəbulu, sahibkarlığın dövlət tənzimlənməsinin səmərəliliyinin yüksəldilməsi, dövlət-sahibkar münasibətlərinin mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac vardır. Bu məqsədlə, prioritet sahələrdə sahibkarlığın inkişafına yönəldilmiş təşkilati tədbirlərin əhatə dairəsi genişləndirilməlidir.

3. Sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafının, eləcə də fərdi əmək fəaliyyəti ilə məşğul olan insanların iqtisadi həvəsləndirilməsi həyata keçirilməlidir. Bu sahədə dünya ölkələrinin təcrübəsindən yararlanılması məqsədəuyğundur. Bununla yanaşı, sahibkarlıq subyektlərinin yaradılmış əlverişli biznes mühitindən eyni dərəcədə faydalanması imkanlarını təmin edəcək rəqabət mühitinin formalaşdırılması istiqamətində fəaliyyətin gücləndirilməsi, antiinhisar tənzimləmənin səmərəliliyinin artırılması lazımdır.

4. İqtisadi tənzimləmə üsullarının tətbiqi sahəsində dövlət sahibkar maraqlarının cəmiyyət maraqları baxımından vahid müstəviyə gətirilməsini təmin edən tarazlı vergi, gömrük, qiymət, kredit, sığorta siyasəti həyata keçirməlidir. Bununla yanaşı, müasir texnologiyalardan istifadə edilməklə, idarəetmə təcrübəsinin tətbiq edilməsi və bu işə sahibkar cəlb edilməklə yüksək-keyfiyyətli, rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsində mühüm əhəmiyyətə malikdir.

5. Elmin ən son nailiyyətlərinə, texnika və texnologiyanın davamlı yeniləşdirilməsinə, innovasiya menecmentinin və marketinqin tətbiqinə, mülkiyyətin özəlləşdirilməsinə və səmərəli özəlləşdirməyə, səmərəli antiinhisar siyasəti mexanizminin tətbiqinə, rəqabətqabiliyyətli məhsulların ixracının səmərəli proteksionizmə əsaslanan, əsl iqtisadi yarış imkanı verən mühit yaradılmalıdır.

6. Sahibkarlığın istehsal, bazar və sosial təminatının yaxşılaşdırılması, o cümlədən, müasir bazar mexanizmlərinin (maliyyə, bank və sığorta sistemi, audit və s.) inkişaf etdirilməsi məqsədəuyğun olardı.

7. Sahibkarlığın məsləhət, informasiya təminatı və kadr hazırlığı sistemi təkmilləşdirilərək müasir dövrün tələbləri səviyyəsinə uyğunlaşdırılmalıdır. Eyni zamanda, Azərbaycanda sahibkarlıq subyektlərinin fəaliyyət göstəriciləri və onun inkişaf meyarlarının təkmilləşdirilməsi istiqamətlərinin elmi cəhətdən əsaslandırılması məqsədə uyğun olar.

8. Sahibkarlığın, xüsusilə, regional sahibkarlığın maliyyə təminatının təkmilləşdirilməsi, bu istiqamətdə məqsədli dövlət maliyyələşməsi ilə yanaşı, alternativ maliyyə mənbələrinin daha da aktivləşdirilməsi üzrə mühitin yaradılması vacibdir. Bu məqsədlə, Azərbaycan Respublikasında və regionlarında sahibkarlıq fəaliyyətinə başlamaq istəyən kiçik və orta sahibkarlıq subyektlərinin maarifləndirilməsinə yönəldilmiş təlimlərin təşkili daha geniş vüsət almalıdır. Eyni zamanda, yerli xammal əsasında istehsalla məşğul olan subyektlərin dövriyyə və ilkin kapitalla təmin edilməsində bank vəsaitlərinin dəstəklənməsinə dövlət yardım etməlidir.

9. İlkin kapitalın formalaşması, kapital qoyuluşlarının maliyyələşməsi üçün uzunmüddətli kreditlərə çıxış imkanlarının genişləndirilməsi yolları işlənilməlidir. Həmçinin, kiçik və orta sahibkarlığın dinamik inkişafına şərait yaratmaq üçün uzunmüddətli kreditlərin verilməsi, məqsədli xüsusi sahibkarlıq kredit fondunun yaradılması.

10. Dünya təcrübəsində dövlət müdafiəsinin birbaşa məqsədli subsidiyaların ayrılması, güzəştli vergiyə cəlbetmə, təminatçı rolunda çıxış etmə kimi variantları tətbiq edilir. Fikrimizcə, sahibkarlığın maliyyə təminatı imkanlarının gücləndirilməsi, işgüzar fəaliyyətin maliyyə təminatı sahəsində dövlətin mövcud real imkanlarından istifadə səviyyəsi artırılmalıdır.

11. İnkişaf etmiş bəzi ölkələrdə kiçik və orta sahibkarlıq subyektləri üçün gəlir vergisinin aşağı dərəcələrinin tətbiqi ön plana çəkilir. Bu iqtisadi vasitə ilə kiçik biznesin texniki yeniləşməsi, onun

ixtisaslaşması səviyyəsinin yüksəldilməsi və iri istehsal sisteminə cəlb edilməsi stimullaşdırılır. Fikrimizcə, vergi mexanizmindən regionlar üzrə sahibkarlığın inkişafının stimullaşdırılması məqsədində də istifadə olunmalıdır. Sahibkarlıq zəif inkişaf edən regionlarda vergi güzəştləri və imtiyazların tətbiq olunması məqsədəuyğun olardı.

**Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi məqalələri dərc olunmuşdur:**


1. "Sahibkarlıq subyektlərinin fəaliyyətinin ölkənin iqtisadi inkişafında rolunun qiymətləndirilməsi" - AMEA İqtisadiyyat İnstitutu, AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, 2015 - № 2, s.107-113.
2. "Azərbaycanda sahibkarlıq subyektlərinin maliyyələşmə mənbələrinin qiymətləndirilməsi" - AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər jurnalı, 2015 - № 3, s.132-140.
3. "Sahibkarlıq subyektlərinin səmərəli fəaliyyətinə təsir edən amillərin qiymətləndirilməsi" - AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər, 2015 - № 5, s.170-176.
4. "Sahibkarlıq subyektlərinin fəaliyyətinin səmərəli təşkili və idarə edilməsində dövlət siyasətinin əsas strateji istiqamətləri" - Azərbaycan Kooperasiya Universiteti, Kooperasiya elmi-praktiki jurnalı, 2016 - № 2, s.59-65.
5. "Sahibkarlıq subyektlərinin inkişafı üçün maliyyə resurslarının təminat mexanizmləri" - AMEA İqtisadiyyat İnstitutu, AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, noyabr-dekabr 2015-ci il, s.56-60.
6. "Emal sənayesində sahibkarlıq subyektlərinin inkişaf strategiya-sının başlıca istiqamətləri" - Bakı Dövlət Universiteti, Beynəlxalq hüquq və inteqrasiya problemləri elmi-praktiki jurnalı, 2016-№ 1, s.71-79.
7. "Azərbaycanda rəqabətədavamlı sahibkarlıq fəaliyyətinin formalaşdırılması yolları" - Azərbaycan Kooperasiya Universiteti, Kooperasiya elmi - praktiki jurnalı 2016-№ 4, s. 5-14.
8. "Оценка современного состояния субъектов предпринимательства в Азербайджане". Экономика и предпринимательство, 2016 - № 8, с.298-301.
9. "Azərbaycanda sahibkarlıq fəaliyyətinə dövlət dəstəyi" - "Beynəlxalq ticarət sisteminin Balidən sonrakı məqsədləri" mövzusunda konfransın materialları. Bakı - 2015, s.153-158.

10. “Azərbaycanda sahibkarlıq fəaliyyətinin davamlı iqtisadi inkişaf problemləri və onların həlli yolları” - Azərbaycan Respublikası Təhsil Nazirliyi, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti. İqtisadiyyatın davamlı inkişaf problemləri, perspektivlər (beynəlxalq konfrans). 27-28 aprel 2016. s.325-326.

11. “Müasir dövrdə sahibkarlıq subyektlərinə dünyəvi baxış” - Azərbaycan Respublikası Auditorlar Palatası, Müasir şəraitdə Auditin tənzimlənməsinin aktual problemləri, (beynəlxalq elmi-praktik konfrans) 5-6 aprel 2016, s.201-205.

12. “Regionların sosial-iqtisadi inkişafında sahibkarlıq subyektlərinin rolunun qiymətləndirilməsi” - Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Biznes Universiteti Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Dünya iqtisadiyyatı və Azərbaycanda turizmin inkişaf istiqamətləri” mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, 05-06 may 2016-cı il. s.551-554.

13. “Azərbaycanda sahibkarlıq fəaliyyətinin inkişaf mərhələləri və perspektivləri” - Bakı Dövlət Universiteti, İqtisadi və siyasi elmlər jurnalı elmi - praktiki jurnalı, 2016 - № 4, s.50-57.

14. “Dünya ölkələrinin milli iqtisadiyyatında sahibkarlıq fəaliyyətinin tədqiqi” - Azərbaycan ali texniki məktəblərinin Xəbərləri ADNASU, 2017 - № 3, s.125-131.

15. “Azərbaycanda sahibkarlığın maliyyələşdirilməsinin yeni mənbələri” - Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri, Beynəlxalq elmi-texniki jurnal, Bakı, 2017-ci il. səh.128-133.

16. “Ölkə iqtisadiyyatının dinamik inkişafını təmin edən sahibkarlıq fəaliyyətində vergi siyasətinin rolu” - Strateji iqtisadi islahatlar: qabaqcıl vergi siyasəti (beynəlxalq elmi-praktik konfrans) Bakı 2017-ci il, s.504-508.

**Алифова Самира Агасамед гызы**

## Пути эффективного использования финансовых ресурсов субъектов предпринимательства в Азербайджане

### Резюме

Диссертационная работа состоит из введения, трех глав, выводов и предложений, также списка использованной литературы.

Во введении обоснована актуальность темы, определены цель и задачи диссертационной работы, отражены объект и предмет исследования. В этой части работы нашло свое отражение теоретико-методологические основы, информационная база и научная новизна исследования, показаны теоретическая и практическая значимость работы.

Первая глава называется «Теоретические и методологические аспекты обеспечения финансовыми ресурсами субъектов предпринимательства». В этой главе рассматриваются теоретические и методологические аспекты предпринимательства, исследованы теоретические концепции, новые методологические основы управления финансовыми ресурсами.

Вторая глава диссертации называется «Оценка текущего состояния финансовых ресурсов субъектов предпринимательства в Азербайджане». В этой главе было рассмотрено текущее состояние финансовых ресурсов субъектов предпринимательства. Кроме того, было отмечено, нынешнее состояние субъектов предпринимательства и некоторые статистические показатели.

Третья глава диссертации называется «Математическое и статистическое моделирование эффективной организации и управления финансовыми ресурсами субъектов предпринимательства» В этой главе проанализированы пути эффективного использования финансовых ресурсов в субъектах предпринимательства в Азербайджане. И в том числе созданы модели для использования эффективных финансовых ресурсов предприятий, прогнозируется развитие субъектов предпринимательства в Азербайджанской Республике.

В заключении обобщены выводы, сделанные в последствии проведенных исследований и выдвинуты соответствующие рекомендации.

**Alifova Samira Agha Samed**

## Ways of effective use of financial resources in entrepreneurship entities in Azerbaijan

## Summary

The thesis consists of an introduction, three chapters, conclusions andproposals, as well as a list of used literature.

In the introduction, the urgency of the topic is substantiated, the purpose and tasks of the dissertation work are determined, the object and the subject of research are reflected. In this part of the work the theoretical and methodological foundations, the information base and the scientific novelty of the research were reflected, the theoretical and practical significance of the work is shown.

The first chapter is called "Theoretical and methodological aspects of providing financial resources to business entities". This chapter examines the theoretical and methodological aspects of entrepreneurship, explores theoretical concepts, new methodological foundations for the management of financial resources.

The second chapter of the thesis is called "Assessment of the current state of financial resources of business entities in Azerbaijan". In this chapter, the current state of financial resources of business entities was considered. In addition, it was noted, the current status of business entities and some statistical indicators.

The third chapter of the thesis is entitled "Mathematical and statistical modeling of effective organization and management of financial resources of business entities". In this chapter, ways of effective use of financial resources in business entities in Azerbaijan are analyzed. And including the creation of models for the use of effective financial resources of enterprises, the development of business entities in the Republic of Azerbaijan is forecasted.

The conclusion summarizes the conclusions made in the aftermath of the conducted studies and put forward the appropriate recommendations.

**МИНИСТЕРСТВООБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**САМИРА АГАСАМЕД гызы АЛИФОВА**

# ПУТИ ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ ФИНАНСОВЫХ РЕСУРСОВ СУБЪЕКТОВ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ

**5304.01 – «Виды экономической деятельности»**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание научной степени
доктора философии по экономике

**Баку - 2018**